







Hər xalqın mənəvi sərvəti ilk növbədə onun tarixini və mədəniyyətini, daha dəqiq desək, varlığını, mövcudluğunu təsdiqləyir və yaşadır. Ona görə də minilləri yola salan belə sərvətlərin qorunması çox vacibdir və bu, vətənə xidmətin başlıca şərtlərindən biridir.

# "Qara dastan-37"

## Azərbaycan İstiqlal Muzeyinin növbəti sərgisi siyasi repressiyanın 80 illiyinə həsr olunub










Qloballaşan dünyada həyatın ritmi bəzən ayrı-ayrı fərdlərin mənsub olduqları xalqı adət-ənənələrindən uzaqlaşdırır, hətta özlərindən sonrakı nəslə hansı dəyərləri miras qoyacaqları barədə düşünmə imkanını belə əllərindən alır. Lakin bu mənəvi aşınmanın qarşısının alınmasının müxtəlif yolları var ki, onlardan ən mühümü ayrı-ayrı xalqların əsrlər boyu yaratdığı maddi və mənəvi irsini qoruyan muzeylərdir. Muzeylər keçmişdən gələcəyə bir körpüdür. Olduqca mühüm missiya daşıyırlar - tariximizin yaddaş kitabı kimi.

1991-ci ildə Azərbaycan İstiqlal Muzeyinin də yaranmasında əsas məqsəd qədim zamanlardan müasir dövrümüzə qədər xalqımızın ictimai-siyasi və mədəni-tarixi həyatındakı mühüm hadisələri və öz istiqlalı uğrunda apardığı mübarizəni ardıcıl olaraq əks etdirməkdir. Altı ekspozisiya zalından ibarət muzeydə 22000-dən artıq eksponat qorunub saxlanılır. Muzeyin direktoru Fəridə Şəms hazırda fəaliyyət göstərən 6 zalın hər birini müqəddəs məkan kimi xarakterizə etdi: "Muzeyin birinci zalında (dövlətçilik) dövlət atributlarını əks etdirən sənədlər, XVIII əsrin ikinci yarısında Azərbaycanın xanlıqlara bölünməsinə, vətənimizin işğalı uğrunda Rusiya ilə İran arasında gedən müharibələrə, Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinin bağlanmasına dair materiallar yer alıb. Bu zalda nümayiş olunan xanlıqların bayraqları, xalq rəssamı Altay Hacıyevin "Cavad xan", Sabir Çopurovun fırça ilə deyil, adicə barmaqla və neftlə çəkdiyi "Şah İsmayıl Xətai" və "Qarabağ atları" əsərləri tamaşaçıların diqqətini xüsusi cəlb edir".

Muzeyin ikinci zalı (şərti olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövrü adlandırılır) zaman baxımından kiçik olsa da, tarixi cəhətdən çox zəngin bir dövrü - XIX əsrin sonu, XX əsrin əvvəlini əhatə edir. Burada mədəniyyət və elm, eyni zamanda, neft sənayesinin inkişafı, H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov kimi neft milyonçuları tərəfindən tikilən yeni binalarla bağlı xeyli materiallar yer alıb. Abbasqulu ağa Bakıxanovun, Mirzə Cəfər Topçubaşovun, Mirzə Kazım bəyin, Mirzə Fətəli Axundovun, Həsən bəy Zərdabinin, Cəlil Məmmədquluzadənin, eləcə də digər klassik şair və yazıçıların fəaliyyətini əks etdirən materiallar bu zalda nümayiş etdirilir.

Həmsöhbətimiz bildirir ki, 1918-ci il 31 Mart soyqırımına həsr olunmuş fotofaktlar, arxiv materialları, sənədlər də bu ekspozisiya zalındadır: "1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı ki, bu, müsəlman Şərqində ilk parlamentli, demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Xalq Cümhuriyyətinin yaradıcılarından olan M.Ə.Rəsulzadə, F.X.Xoyski, Ə.B.Topçubaşov və digər görkəmli şəxsiyyətlərin tarixi anlarının fotoları, həmçinin o zamanın pul vahidləri, poçt markaları, dövlət rəmzləri, eləcə də həmin dövrün müxtəlif hadisələrini əks etdirən materiallar bu zalda sərgilənir".

Muzeyin üçüncü zalı Cənubi Azərbaycan - milli-azadlıq hərəkatı mövzusuna həsr olunub. Burada Cənubi Azərbaycanda baş vermiş milli-azadlıq hərəkatlarından - 1905-1911-ci illər Məşrutə, 1917-1920-ci illər Şeyx Məhəmməd Xiyabani, 1941-1945-ci illərdəki "21 Azər" hərəkatlarından (Seyid Cəfər Pişəvərinin başçılığı ilə) danışılır, o dövrün pul vahidləri, orden və medalları, görkəmli şəxsiyyətlərin, şair və yazıçıların, elm xadimlərinin portretləri nümayiş etdirilir. Həmçinin zalda Cənubi Azərbaycanda Milli hökumətin müdafiə naziri general-mayor Cəfər Kavianın şəxsi arxivi də tamaşaçılara təqdim olunur.

Muzeyin repressiya və İkinci Dünya müharibəsini özündə əks etdirən dördüncü zalı da maraqlı materiallarla zəngindir. Birinci hissəsi 1930-1950-ci illəri əhatə edir. Bu dövrdə Azərbaycanın səadəti uğrunda çalışan elm adamları, söz sahibi olan şair və yazıçılar, partiya və dövlət xadimləri - H.Cavid, M.Müşfiq, Ə.Nəzmi, Ə.Cavad, S.Mümtaz, B.Talıblı və başqaları, irticaya məruz qalaraq ya güllələndilər, ya da Sibirə sürgün olundular. Ən dəhşətlisi isə odur ki, respublikada siyasi və ictimai fəallığı ilə fərqlənən Azərbaycan qadınları da repressiya qurbanlarına çevrildilər. İkinci Dünya müharibəsi bu zalın ikinci hissəsini əhatə edir. Burada Sovet İttifaqı qəhrəmanları haqqında materiallar, orden və medallar, silah-sursat, partladılmış mərmi, çap maşını, Morze teleqraf aparatı, səhra telefonu nümayiş olunur.

Tarixi ardıcıllığı gözlənilən zallar bir-birini əvəz etdikcə zülmətdən işığa doğru açılan yolun qəfil dayanacağı da var. Bura beşinci zaldır: Qarabağ adlı. Qarabağ hadisələrinə həsr olunub. Ötən əsrin 80-ci illərinin sonunda Azərbaycanın Ermənistan tərəfindən irticaya məruz qalması barədə buradan müfəssəl məlumat əldə etmək mümkündür. Muzeyin elmi katibi Nigar Qədirova da zal haqqında ümumi məlumat verərkən qeyd etdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, əslində, elan olunmamış müharibədir. Ermənistanın təcavüzkarlığı nəticəsində ərazilərimizin 20 faizinin işğalı ilə yanaşı, bir milyondan çox soydaşımız da öz doğma torpaqlarından qaçqın və məcburi köçkünə çevrildi: "Bu zalda 20 Yanvar faciəsini, Xocalı soyqırımını, Qarabağ müharibəsini əks etdirən fotoşəkillər nümayiş olunur, Milli qəhrəmanlarımız haqqında məlumat verilir. Eksponatların arasında 1989-cu ildə Qız qalası üzərində qaldırılmış üçrəngli bayrağımız, Qarabağ müharibəsi veteranı Seyidağa Mövsümlüyə aid 20 Yanvar faciəsi və Xocalı soyqırımını lentə almış videokamera, Milli qəhrəmanların ailə üzvləri tərəfindən muzeyə hədiyyə edilmiş şəxsi əşyaları da var".

Bu da muzeyin altıncı, demək olar ki, sayca sonuncu zalı - (Heydər Əliyev - Müasir Azərbaycan dövləti adlandırılır) müasir dövrə həsr olunub. Bu dövrə həsr edilən zal Azərbaycanın iqtisadiyyatında, xarici siyasətində, ordu quruculuğunda, mədəniyyətində, idmanında inkişafını göstərən fotoşəkillər, kitablar və digər eksponatlarla zənginləşdirilib. Müstəqil Azərbaycanın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevlə Prezident İlham Əliyevin həyat və fəaliyyətlərini özündə əks etdirən zalda xüsusilə Azərbaycanın mədəni həyatında Heydər Əliyev Fondunun rolu qeyd olunur. Bunlardan başqa, zalın özəlliklərindən biri də Ermənistanın hərbi təcavüzü nəticəsində darmadağın edilən 22 muzeydəki nadir eksponatlar haqqında məlumat verilməsidir. Muzeyin direktoru Fəridə Şəms yeri gəlmişkən qeyd etdi ki, bu zalda Cəbrayıl tarix-diyarşünaslıq muzeyinə məxsus 18000 (onlardan bir qismi ekspozisiyada nümayiş olunur), Ağdam rayonunun R.Məmmədov adına Döyüş Şöhrəti Muzeyinin isə 11 eksponatı mühafizə edilir.

Muzeyin ekspozisiyasında Dövlət Təhlükəsizliyi Xidməti arxivinin və Dövlət Sərhəd Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən siyasi repressiyanın 80 illiyinə həsr olunmuş "Qara dastan - 37" sərgisi xüsusi diqqət çəkir. Sərgidə nümayiş etdirilən sənədlərdən də göründüyü kimi, 1920-ci ildən başlayaraq 30 ilə yaxın davam edən siyasi repressiyalar Azərbaycan tarixində baş vermiş ən böyük faciələrdən biridir. Bu illər ərzində qabaqcıl düşüncəyə malik bir çox ziyalılarımız, şair və yazıçılarımız, eləcə də dövlət xadimlərimiz repressiyanın qurbanına çevriliblər. 1937-ci ilin sonunda ümumi repressiyaya məruz qalanların sayı 80 min nəfər olub...

Muzeydə təşkil olunan sərgidə yeni eksponatlar - müvəqqəti saxlama yerlərinin qapısı, Dövlət Təhlükəsizliyi Xidmətinin arxivinin sənədləri, o dövrə məxsus müxtəlif əşyalar nümayiş etdirilir.

Otuzuncu illərin repressiya qurbanı olan, ölməz şair-dramaturq Hüseyn Cavidin 135 illik yubileyinin keçirilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı sərəncam da xüsusi guşədə öz əksini tapıb. Cavidin adı totalitar rejimin repressiya qurbanlarının bütövlükdə rəmzinə çevrilib və muzeydəki sərgidə ona aid guşə tamaşaçılara daha təsirli şəkildə təqdim olunur.

Öyrənirik ki, Azərbaycan İstiqlal Muzeyində ölkəmizin tarixindəki mühüm hadisələrə həsr olunmuş müxtəlif tədbirlər, sərgilər, "dəyirmi masa"lar, təqdimatlar, açıq dərslər davamlı şəkildə keçirilir ki, bu da gənc nəslin vətənpərvər ruhda tərbiyə olunmasında xüsusi əhəmiyyət daşıyır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2017.-19 dekabr.- S.7.